# Vətən ana, Vətən candır...

## Gənclərdə vətənpərvərlik hisslərinin yüksək olması ilk növbədə onların milli-mənəvi özünüdərkindən keçir

**"Hardan başlanır Vətən?" Bu sual 3 cümlədən ibarət olsa da, olduqca dərin və düşündürücüdür... Dünyaya ilk dəfə göz açarkən gördüyümüz yerdən başlanır Vətən. Üzümüzə toxunan ana nəfəsindən, anadan başlanır Vətən. Beşikdən, ilk dəfə eşitdiyimiz nəğmədən- ana laylasından başlanır Vətən. İməklədiyimiz, divarından tutub ayağa durmağı öyrəndiyimiz otaqdan başlanır Vətən. İlk dəfə ayağımız toxunan torpaqdan başlanır Vətən. Bəlkə sərhəddən başlanır Vətən?! Bəlkə də elə bu hiss bizə ana bətnində aşılanır?**

Bəs vətənpərvərlik hissi necə yaranır? Bu suala müxtəlif yönlərdən cavab vermək olar. Məncə, vətənpərvərlik hissi qandan, damardan, nəfəsdən gəlir. O, elə bir məhfumdur ki, onu dünyanın sərvətinə dəyişmək, satmaq olmaz. Vətənpərvərlik aşılanmır. Mümkün deyil. Quyuya su tökməklə dolmaz. Zatı xarab, özünü sevməyən, ailəsini, hətta doğma bir əşyasını sevməyən, onun qədrini bilməyən insandan vətənpərvərlik gözləmək olmaz. O, hiss deyil. O, xarakterdir, keyfiyyətdir. Və insan bununla doğulur, bununla böyüyür və böyüdükdə vətənpərvərlik kök atır, şaxələnir. Vətənpərvərlik dəyərdir. O, bir sözdən ibarət deyil. Özündə min söz var. Əxlaq, namus, vicdan, mərhəmət, yardım, sayqı, hörmət...

Bəzi insanlar Vətən anlayışını səhv başa düşür. Vətən anlayışı elə bir anlayışdır ki, onu ruhunla, canınla, qanınla, bir sözlə, bütün varlığınla hiss etməlisən... Bu hər bir gəncin, hər bir Azərbaycan vətəndaşının borcudur. Çünki Azərbaycan tarix boyu bir çox xarici qüvvələrin, yağı düşmənlərin gözündə yağlı tikə olub. Buna görə də ölkəmiz vaxtaşırı yadellilərin hücumlarına, işğallarına məruz qalıb. Tarixin müxtəlif dönəmlərində igid oğullarımız düşmənlərimizin bizim yeraltı sərvətlərimizi mənimsəmək məqsədilə müxtəlif qırğınlar törətməsinin, Azərbaycanı ələ keçirməyə cəhd etməsinin qarşısını məharətlə alıblar.

Bu gün də bu Vətənin vətənpərvər gənclərə ehtiyacı var. 20 ildən çoxdur ki, torpaqlarımızın 20 faizi - Dağlıq Qarabağ və 7 ətraf rayon Ermənistanın işğalı altındadır. Uzun illərdir ölkə rəhbərliyi bu problemi sülh yolu ilə həll etməyə çalışır, lakin istənilən halda, hərb yolu ilə olsa da, torpaqlarımızın azad ediləcəyi bəyan edilir.

Ümummilli lider Heydər Əliyev gənclər qarşısında çıxışlarının birində qeyd edirdi: "Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Buna görə də gənclərdə vətənpərvərlik hissini yüksəltmək, Vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır".

### BƏS GƏNCLƏRİ VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ ETMƏK ÜÇÜN NƏ ETMƏLİYİK?

Gənc nəslin vətənpərvərlik hisslərinin artırılması hər zaman prioritet olub. Bu sahədə qəbul edilən dövlət proqramları, imzalanan fərman və sərəncamlar gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqillik yolunda 20 ildir ki, irəliləyən Azərbaycana məhz milli şüura malik, vətənpərvər gənclər lazımdır. Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Heydər Əliyev müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişməsini dəfələrlə qürur hissi ilə vurğulayıb: "Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".



### "VƏTƏNPƏRVƏRLİK TƏKCƏ VƏTƏNİ SEVMƏK DEYİL"

**Millət vəkili Aydın Mirzəzadə** deyir ki, vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır: "Vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyümədə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən olub".

**Millət vəkili Zahid Oruc** mətbuata açıqlamasında gənclərin vətənpərvərlik hissindən danışarkən deyir ki, Azərbaycan gəncliyinin sahib olduğu ən vacib xüsusiyyətlərdən biri hərbi vətənpərvərlik ruhunun yüksək səviyyədə olmasıdır: "Hamıya bəllidir ki, ötən əsrin sonlarında Ermənistanın ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə qarşı təcavüzünün qarşısının alınmasında Azərbaycanın vətənpərvər gəncləri öndə olublar. Zaman keçdikcə gənc nəsildə vətənpərvərlik, milli qürur hissləri daha da güclənir. Bildiyimiz kimi, bu gün torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altındadır, bir milyondan çox soydaşımız isə qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Bu fakt Azərbaycan gəncliyini daha ayıq-sayıq olmağa, istər informasiya sahəsində, istərsə də cəbhə xəttində ölkənin müdafiəsi uğrunda əlindən gələni etməyə sövq edir. Şübhəsiz, ölkəmizin müharibə şəraitində olması, işğal faktının hələ də davam etməsi Azərbaycanın güclü və müasir ordusunun olmasını zəruri edir. Sevindirici haldır ki, Azərbaycanın bu gün belə bir ordusu var. Çünki dövlətin gənclər siyasəti var. Dövlət gənclər siyasəti gənclərin öz bilik və bacarıqlarının, təbii potensialının effektli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir".

> **"Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Buna görə də gənclərdə vətənpərvərlik hissini yüksəltmək, Vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır".**

### "MÜASİR GƏNCLƏR DAHA VƏTƏNPƏRVƏRDİR"

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qaradağ rayon İdarəsinin rəisi mayor Novruz Rəhimov** bizimlə söhbətində bildirdi ki, müstəqilliyin ilk illəri ilə müqayisədə indi gənclər daha vətənpərvərdirlər və ordu sıralarına həvəslə qatılırlar. Onun sözlərinə görə, hətta yaşı çatmayanlar belə hərbi xidmətə yollanmaq üçün müraciət edirlər: "Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, eləcə də onlarla vətənpərvərlik mövzusunda işlərin aparılması ilk növbədə məktəb illərindən başlanır. Təbii ki, həmin yükün ağırlığı da bizim üzərimizdədir. Biz çalışırıq ki, məktəblərdə gənclərlə "Şahin" hərbi idman oyunlarının, "Cəsurlar" idman yarışlarının, eləcə də hərbi ixtisas üzrə məktəblərdə hərbi təlimlərin keçirilməsi işini davam etdirək. Bunun nəticəsidir ki, bu gün rayon üzrə çağırışçılar böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yola salınır".

### VƏTƏN CANDIR...

Gənclərin vətən sevgisini, vətənpərvərlik hisslərini araşdırmaq üçün onlarla da söhbətləşdik.

Rauf Bəkirov deyir ki, Vətən anadır, Vətən candır... "Biz hər birimiz bu Vətənin övladlarıyıq.Torpağının üstündə gəzdiyimiz, suyunu içdiyimiz Vətən dardadır və bizə ehtiyacı var. 20 faiz torpaqlarımızı xilas etmək üçün canımdan keçməyə hazıram. Çünki bizim bu Vətənə can borcumuz var və onu qaytarmalıyıq".

Elmar söhbətə Rəşid Behbudovun misraları ilə başlayır: "Bir anamdan, bir də səndən doya bilmirəm, ey Vətən...". Vətən bizim doğulduğumuz, böyüyüb boya-başa çatdığımız məkandır. Vətən bizim evimizdir. Ürəyində Vətən sevgisi olmayan insanı mən insan hesab etmirəm...".

### GƏNCLƏR APARICI QÜVVƏDİR

Bu gün Azərbaycanda gənclərin vətənpərvər ruhda tərbiyə olunması başlıca vəzifələrdən biridir. Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə bu yöndə təbliğatın gücləndirilməsi vacib əhəmiyyət kəsb edir. Çünki dövlətin qarşısında duran başlıca vəzifələrdən biri də gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi və onlara vətənpərvərlik hisslərinin aşılanmasından ibarətdir. Gənclərin aparıcı qüvvə olaraq gələcəkdə dövlətin yükünü öz üzərində daşımalı olacağını nəzərə alanda sözügedən məsələyə son dərəcə məsuliyyətlə yanaşmaq reallığı ortaya çıxır. Gənclərin vətənpərvərlik ruhunun yüksək olması hər mənada dövlətin xeyrindədir. Fərqi yoxdur, həmin gənc hərbçidir, yoxsa digər peşə sahibi. Hansı peşə üzrə əmək fəaliyyəti ilə məşğul olmasından asılı olmayaraq, gənc nəsildə vətənpərvərlik, torpağa, dövlətə sədaqət hissləri yüksək olmalıdır. Azərbaycan dövləti tərəfindən son illər bu istiqamətdə bir sıra addımlar atılır, sistemli işlər görülür. Bütün bunlarla yanaşı, gənclərdə vətənpərvərlik hisslərinin yüksək olması ilk növbədə onların milli-mənəvi özünüdərkindən keçir. Hər bir gənc, vətəndaş dərk etməlidir ki, hansı Vətəni, milləti, milli xüsusiyyətləri təmsil edir.

Unutmayın... Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhdan və digər amillərdən asılıdır. Vətənini, öz azadlıq və istiqlaliyyətini sevən bir xalqın ruhunu məhv edəcək bir qüvvə yoxdur...

**Aygün ƏZİZ**

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**